# Xəyanətkarlar və Fədakarlar

1985-ci ilin aprelində başlanmış yenidənqurma, bir sıra çox böyük problemlər yaratmaqla, millətlərarası münasibətlərin kəskinləşməsi ilə nəticələndi. Pribaltika respublikalarında, Gürcüstanda, Qazaxıstanda, Özbəkistanda münaqişə ocaqlarının yaranmasına səbəb oldu. M.Qorbaçovun və ermənilərin fitnə-fəsadının güdazına gedən Heydər Əliyevin 1987-ci ilin oktyabrında Sov. İKP MK Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verməsindən sonra, Parisdə Aqanbekyan DQ-in Ermənistana birləşdirilməsinin məqsədəuyğunluğu barədə "Humanite" qəzetinə müsahibə verdi.

1988-ci il fevralın 20-də, Ermənistanın müdaxiləsi ilə DQMV Xalq Deputatları Sovetinin iclası keçirildi. Sovetin tərkibindəki 140 deputatdan 110-u erməni, digərləri isə azərbaycanlılar idi. Azərbaycanlı deputatlar yığıncağa buraxılmadılar. İclasda DQMV-nin Azərbaycan SSR-dən Ermənistan SSR-ə verilməsi haqqında qeyri-konstitusion qərar qəbul olundu. Ermənistanda yaşayan azərbaycanlılar qədim ata-baba yurdlarından vəhşicəsinə qovulmağa başladı. 1989-cu ilin noyabr ayında axırıncı azərbaycanlı ailəsi Ermənistandan qovuldu. Ermənistandakı 185 Azərbaycan kəndindən 230 min azərbaycanlı qovularaq, etnik təmizləmə həyata keçirildi.

Ermənistan SSR Ali Soveti DQMV-ni Ermənistana birləşdirmək barədə 1989-cu il dekabrın 1-də qərar qəbul etdi. Ermənistan SSR Ali Sovetinin və DQMV-nin xalq Deputatları Sovetinin qəbul etdiyi qeyri-konstitusion qərarlarından və üstəlik Ermənistanda yaşayan azərbaycanlı ata-baba yurdlarından qovulmasından hiddətlənən xalqımız öz suveren hüquqlarını qorumaq üçün ayağa qalxdı. Ermənistanın qanunsuz və ədalətsiz ərazi iddiaları və Dağlıq Qarabağda separatçılıq hərəkatı, respublikanın ərazi müdafiəsi uğrunda kütləvi xalq hərəkatının yaranmasına gətirib çıxardı. 1990-cı ilin yanvarında Azərbaycanda ictimai-siyasi vəziyyət kəskinləşdi. Xalq hərəkatını boğmağa çalışan Qorbaçov buna başqa don geyindirərək xalqı cəzalandırmağı qarşısına məqsəd qoydu. Guya Azərbaycanda kommunist rejiminin devrilməsi təhlükəsi yaranmışdı. Respublika rəhbərliyi öz hakimiyyətini qorumağa cəhd edirdi. Hakimiyyət daxilində, hakimiyyət uğrunda mübarizə gedirdi. Ə. Vəzirov, A. Mütəllibov, V. Polyaniçko Azərbaycanda sovet sosialist dövlətçiliyini qorumaq və əmin-amanlıq yaratmaq üçün hərbi qüvvələrə ehtiyac olduğunu elan edirdilər. Faktlara müraciət edək. Həmin dövrdə mərkəzə ünvanlanmış şifroteleqramın mətnini nəzərinizə çatdırmaq istəyirəm:

**04.09.89-cu il, Sov, İKP MK-ya.**

**Bakı şəhərində və Azərbaycan Respublikasında son dərəcə gərgin vəziyyət yaranmışdır. Millətlərarası zəmində cinayətlər törədilir. Vəziyyətə nəzarət olunur, lakin mövcud qeyri-sabitlik gözlənilməz nəticələrə gətirib çıxara bilər. Odur ki, xüsusilə mühüm obyektlərin mühafizəsi üçün Sovet ordusu bölmələrinin ayrılması haqda göstəriş verməyinizi xahiş edirəm.**

**AKP MK-nın birinci katibi**
**Əbdürrəhman Vəzirov.**

**11.01.90-cı il, N. İ. Rıjkova (SSRİ Nazirlər Sovetinin sədri).**

**İctimai asayişin mühafizəsini gücləndirmək və baş verə biləcək millətlərarası konfliktinin qarşısını almaq məqsədilə Azərbaycan SSR-ə SSRİ DİN-in 7 min nəfərlik daxili qoşun kontingentini göndərmənizi xahiş edirəm.**

**Azərbaycan SSR Nazirlər sovetinin sədri**
**Ayaz Mütəllibov.**

**21.08.89-cu il, SSRİ daxili işlər naziri Bakatinə.**

**Son günlərdə respublikada, xüsusilə Bakıda vəziyyət gərginləşmişdir. İctimai asayişi və təhlükəsizliyi təmin etmək məqsədilə daxili qoşunların 1500-2000 əsgərini Bakı şəhərinə göndərməyinizi xahiş edirəm.**

**AKP MK-nın ikinci katibi**
**Viktor Polyaniçko.**

**18.12.89-cu il, Bakatinə.**

**Son vaxtlar Bakıda və respublikanın bir neçə rayonunda vəziyyət kəskin şəkildə gərginləşmişdir. Qeyri-formal birliklərin ekstremist hissəsi antierməni əhval-ruhiyyə yaradır. Bununla əlaqədar olaraq, asayişi təmin etmək üçün daxili qoşunların 1200 nəfərlik kontingentini göndərməyinizi xahiş edirəm.**

**Bu teleqramın üzərində 19.12.89-cu ildə nazir Bakatin belə dərkənar yazıb: yol. Şatalin (daxili qoşunların komandanı) yoldaş Vəzirovun xahişini nəzərə alıb, göndərin.**

AXC-də hakimiyyət uğrunda mübarizəyə girişmişdi. DTK-nın sifarişi ilə Bakıda erməni mənzillərinin boşaldılmasına başlanmışdı. Bu prosesə də AXC fəalları rəhbərlik edirdi. Bir sözlə, respublikada hakimiyyətsizlik vardı.

Yolları yalın əllə kəsmək, hərbi hissələrin ətrafına yığışmaq, sərhəd dirəklərini sökən zabitlərin təxribatına uymaq Qorbaçovun planına uyğun hərəkətlər idi. Həmin günlərdə Vəzirovun "gedin zavodlarda silah buraxın" deməsi, yaxud A. Mütəllibovun Bakıya əlavə daxili qoşun gətirməsi Qorbaçovun planını həyata keçirməyə xidmət edirdi. "Gedin yolları kəsin, sizə silah gətirəcəyik" deyənlər, xalqı qırğına göndərirdilər.

**Hadisələrin qısa xronologiyasına diqqət yetirək:**

**1990-cı ilin ilk günləri.** Moskvanın yüksək rütbəli emissarları-Primakov, Yazov, Girenko, Bakatin artıq Bakıda idilər və məhz onların himayəsi altında sapı özümüzdən olan baltalar faciəyə aparan təxribatları törədirdilər.

**13 yanvar 1990-cı il.** DTK-nın xüsusi təxribat planına əsasən Azadlıq meydanında mitinq zamanı Bakıda bir erməninin iki azərbaycanlını baltaladığı barədə məlumat verilir. Bununla da Bakıda vəziyyət daha da gərginləşir.

**14 yanvar 1990-cı il.** SSRİ Ali Soveti Rəyasət Heyətinin "Dağlıq Qarabağ Muxtar Vilayətində və bəzi digər rayonlarda fövqəladə vəziyyət elan olunması haqqında" fərmanı ilə azərbaycanlıları Dağlıq Qarabağda gedən proseslərdən tamamilə uzaqlaşdırdılar.

**19 yanvar 1990-cı il.** Axşam saat 19:30-da Azərbaycan Dövlət Televiziyasının enerji bloku xüsusi xidmət orqanları tərəfindən partladıldı. Bu partlayışın təşkilatçıları SSRİ DTK-nın "Alfa" qrupu və o dövrdə Azərbaycan DTK-nın sədri olan V. Hüseynov idi. Bu partlayışdan sonra bütün Azərbaycan hər cür informasiyadan məhrum olundu.

**19 yanvar 1990-cı il.** Fövqəladə vəziyyətin elan edilməsinə 7 saat qalmış 11 minlik ordu Bakıya yeridildi. İnsan haqlarına dair bütün beynəlxalq sənədlər, o cümlədən İnsan hüquqları haqqında ümumi Bəyannamə, Vətəndaş və Siyasi hüquqlar haqqında Beynəlxalq Pakt, Uşaq hüquqlarına dair Konvensiya, IV Haaqa Konvensiyası, Əhalinin Müdafiəsi Haqqında Cenevrə Konvensiyası, Qadın və Uşaqların Fövqəladə Şəraitində Müdafiəsi Haqqında Bəyannamə və ən əsası - Azərbaycan Respublikasının Konstitusiyası kobudcasına pozuldu.

**20 yanvar 1990-cı il.** Bakı döyüş meydanını xatırladırdı. Yüzlərlə azərbaycanlının qanına boyanmış küçələr al qərənfillərlə bəzədilmişdi, evlərdən, eyvanlardan qara matəm bayraqları asılmışdı. Həmin dəhşətli gecənin səhərisi, məhz yanvarın 20-də elan olundu ki, Bakıda fövqəladə vəziyyət tətbiq edilib.

Bu faciə, bu cinayət qabaqcadan düşünülüb hazırlanmış bir təcavüzkarlıq aktı idi və Azərbaycan xalqının səsini boğmaq, SSRİ-nin digər xalqlarına dərs vermək məqsədi güdürdü.

**21 yanvar 1990-cı il.** Yalnız öz şəxsi təhlükəsizliyini düşünən Ə. Vəzirovun gizli şəkildə hərbi təyyarə ilə Moskvaya qaçdığı məlum oldu. Azərbaycan KP MK-nın birinci katibi seçildiyi gündən xalqa xəyanət yolu tutan Ə. Vəzirov yanvarın 19-da öz iş yerində olmaq əvəzinə DTK-nın binasında, V. Hüseynovun yanında olmuşdur. Sonra isə o, gizli surətdə Cənub istiqamətli Qoşunların Baş Qərargahına getmiş və burada birlikdə hərbi əməliyyatlara rəhbərlik edən D. Yazovun, V. Bakatinin yanında olmuşdur.

**23 yanvar 1990-cı il.** Ayaz Mütəllibov, Həsən Həsənov, Viktor Polyaniçko, Müslüm Məmmədov Moskvada Mixail Qorbaçovdan vəzifə istəyirdilər. Əslində A. Mütəllibov həmişə xalqdan uzaq olmuş, özü üçün yaşamış, öz karyerasında xalqdan, xalqın problemlərindən pilləkən kimi istifadə etmiş bir adam idi. 80-ci illərin axırlarında azərbaycanlıların Ermənistandan, öz dədə-baba torpaqlarından qovulmasını biganəliklə seyr etdiyi kimi, Dağlıq Qarabağın da erməniləşdirilməsini eyni biganəliklə seyr edirdi. Millətin faciəsi isə onun üçün irəli getmək və moskvalı ağalarına xidmət etmək üçün daha bir fürsət idi.

Yanvarın 20-də dan yeri söküləndə MK-nın qarşısına gəldim. Matəm mitinqinə yüzlərlə insan gəlmişdi. İlk gözümə dəyən, MK-nın binasının qarşısında, sol küncdə dayanan Anar, Sabir Rüstəmxanlı, mərhum şairlərimiz B.Vahabzadə, Qabil, Xəlil Rza və Yusif Səmədoğlu oldu. 1990-cı il yanvarın 20-də, səhər tezdən keçmiş Mərkəzi Komitənin binası qarşısındakı meydana ziyalılarımız və xalqımızın yüzlərlə vətəndaşı kütləvi ümumxalq etiraz mitinqinə yığılmışdı. MK qarşısında xalq izdihamı qəzəblə dalğalanırdı. Mitinqdə B. Vahabzadə, Anar, Qabil, Xəlil Rza, Yusif Səmədoğlu, Sabir Rüstəmxanlı və digər ziyalılarımız, SSRİ hökumətinin Azərbaycan xalqına təcavüz etməsinə qarşı kəskin çıxışlar edirdilər. Xəlil Rza odlu çıxış edərək partiya biletini atdı. Xəlil Rzadan sonra B.Vahabzadə, Anar, Qabil və başqa ziyalılarımız partiya biletlərindən imtina etdilər. Bəxtiyar müəllim məni görən kimi, yanına çağırdı. Biz Bəxtiyar müəllimlə qonşu idik.

Bəxtiyar müəllimin gözləri nəmli idi,

Mənə dedi: "Oğlum, Bakı şəhid meyitləri ilə doludur. Biz onları dəfn etməliyik. Ona görə də, qələm, kağız al, birinci şeyxin, sonra mənim, qalanını da kim istəyir onun adını yaz, komissiya yaradaq, özün də həmin komissiyaya başçılıq et. Həm də çalış ki, şəhidlərin "Dağüstü" parkda dəfnini rəsmiləşdirə biləsən. "Həmin mitinqdə mikrofona yaxınlaşaraq Dəfn komissiyası yaratmaq istədiyimizi və həmin komissiyaya yazılmaq istəyəni mənə yaxınlaşmasını xahiş etdim. Beləliklə, komissiyaya yazılmaq istəyən çox oldu. Lakin mən 11 (onbir) nəfərdən ibarət komissiya üzvü yazdım.

Həmin komissiyanı çox çətinliklə formalaşdıra bildim. Çünki müxtəlif qruplar, şəxslər, cəbhəçilər bəhanə gətirərək komissiyaya yazılanlara etirazını bildirirdilər. Ona görə də yanvarın 20-də axşama qədər həmin komissiyanın üzvlərini dəqiqləşdirə bilmədim. Bakının komendantı Dubinyakın, hökumət nümayəndələrinin və başqa yetkililərin hər vəchlə şəhidlərin dəfninin sönük keçməsinə, ölülərin hamısının bir məzarda basdırmaq cəhdlərinə, komissiyanın yaradılmasına müxtəlif müqavimətlər və maneçiliklər törətməsinə baxmayaraq, 21 yanvar 1990-cı ildə "Dəfn komissiyası"nın tərkibini müəyyənləşdirərək siyahı tərtib etmişdim. Şəhidlərin dəfnini rəsmiləşdirmək üçün Bakı Sovetinin sədri Niyazi Qaraqaşlı ilə görüşdüm. N. Qaraqaşlı müxtəlif bəhanələrlə rəsmi icazədən tamamilə imtina etdi. Lakin N. Qaraqaşlının müavinləri Ədalət Əzizov və Ədilə xanımı minnətdarlıqla xatırlayıram. Çünki mən N. Qaraqaşlının yanından kor-peşiman çıxarkən dəhlizdə Ədalət Əzizov və Ədilə xanım mənə yaxınlaşaraq bizə əlindən gələn köməklik etməyə hazır olduqlarını bildirdilər. Dedim ki, mənə köməklik odur ki, şəhidlərin dəfn yerini necə rəsmiləşdirim, hara gedim bilmirəm? Ədilə xanım ağlaya-ağlaya dedi ki, Niyazi Qaraqaşlı həmin sənədi sənə verməyəcək. Biz onu yaxşı tanıyırıq. Sən, 26 Bakı Komissarı rayonunun katibi Vəli Məmmədovun yanına get. O, sənə bir məsləhət verər. Vəli müəllim, 26 Bakı komissarı adına rayon şəhər Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsinin sədri Əli Məmmədovu çağırıb məsləhətləşdikdən sonra, həmin qərarı rəsmiləşdirib mənə verdilər. Lakin onu da qeyd etməliyəm ki, həmin yerin seçilməsində müxtəlif mübahisələr, müqavimətlər yaradıldı. Şəhidləri basdırmaq üçün müxtəlif yerlər təklif olunurdu. İcraiyyə Komitəsinin sədri Əli Məmmədov, arxitektor Nəriman Əliyev, Bərpaçı İdarəsinin baş mühəndisi İslam Göyüşov və mən həmin məsələni müzakirə etdikdən sonra, vaxtilə şəhid qəbiristanlığı olmuş "Dağüstü park"ın üzərində durduq. Həmin yerin rəsmiləşdirilməsində də xeyli mübahisələr oldu. Razılaşdıq ki, qəbirlər bir sıra boyunca qazılsın, əgər yerləşməsə, ikinci sıra üçün ətrafdakı ağacları kəsib, qayalığı düzəldərik. Yanvarın 21-də camaat qəbir yerlərini qazmağa başladılar.

19 yanvar 1990-cı il axşam saat 19:30-da Azərbaycan Dövlət Televiziyasının enerji bloku xüsusi xidmət orqanları tərəfindən partladıldı. Bu partlayışdan sonra bütün Azərbaycan hər cür informasiyadan məhrum oldu. Ümid yalnız radioya qalmışdı-xarici radiolara. Bakıda nələr baş verdiyindən yalnız Berlindən yayımlanan "Azadlıq" radiosu vasitəsilə xəbər tuturdu. Birdən Xalq şairi Bəxtiyar Vahabzadənin səsi eşidildi. Paytaxtda baş verənlərdən danışdı və bütün deputatlardan təcili sessiyaya gəlmələrini xahiş etdi. Həmin sessiyada mən iştirak edib qazılan qəbirlərin sayı haqqında məlumat verdim. Bütün gecə davam edən sessiyada şəhidlərin dəfn olunması üçün yerin seçilməsi üstündə deputatların qızğın mübahisəsi düşdü. Bir çox deputatlar şəhidlərin indiki yerdə dəfn olunmasına qəti etiraz edirdilər ki, Dağüstü park gözəl gəzinti-istirahət yeridir, oranı qəbiristanlığa çevirmək olmaz. Lakin mərhum şairimiz B. Vahabzadə, Xalq yazıçısı İsmayıl Şıxlı və Sabir Rüstəmxanlının təkidi ilə razılığa gəlindi. Sessiyanın çağırılması, "Dəfn komissiyası"nın yaradılması, Bakıda fövqəladə vəziyyət və qadağan saatı elan edildiyi, çox ağır və dözülməz təqiblər şəraitində görülən işlər idi. Çünki, hadisələr üzərində nəzarət tamam itmişdi.

Vəzirov qaçıb aradan çıxmışdı. O günlərdə "Başsız" başçılar xalqın qəzəbindən, məsuliyyətsiz hərəkat "lider"ləri isə can qorxusu ilə qaçıb gizlənmişdilər. Günahsız insanların meyitləri küçələrdən yığışdırılmamış başı Moskva ilə vəzifə alverinə qarışmış hakimiyyət də Moskvada zühur etmişdi. Xalqı kortəbii olaraq mitinqlərə səsləyən "heç yerə getməyin, indi sizə silah verəcəklər" deyən əliyalın əhalini zirehli hərbi maşınların qarşısına çıxaran xalq hərəkatının "lider"ləri küncdə-bucaqda gizlənərək qeybə çəkilmişdilər. Azərbaycan televiziyasının enerji bloku partladılaraq, informasiya yayım əlaqələrinin qarşısı alınmışdı.

Törədilmiş cinayət barədə dünya ictimaiyyətinə xəbər verməmək üçün Azərbaycan informasiya blokadasına alınmışdı. Demokratiyanı, insan hüquqlarını bayraq edən Qərb dövlətləri vicdan əzabı çəkmədən Bakı qırğınını SSRİ-nin daxili işi elan etmişdilər. Bakı şəhid meyitləri ilə dolu idi. Şəhərdə şayiələr hakim idi. Xalq çaşqınlıq içində idi. Hamının üzündə qorxu, böyük sarsıntı, məyusluq, həyəcan, təşviş, kədər və qəm-qüssə oxunurdu. İnzibati aparat iflic vəziyyətinə düşmüşdü. Həmin anlarda insanların müəyyən qədər inandıqları adamlar da aradan çıxmışdılar.

Azərbaycan xalqı yalqız və sahibsiz idi. Onun sözünü eşidən, sözünü dinləyən yox idi. Azərbaycanın harayı laqeydlik içində qeyb olmuşdu. Ən böyük təzad isə o idi ki, Azərbaycanın çıxılmaz vəziyyətə düşməsində, hakimiyyəti qoruyub saxlamağa can atan xəyanətkar "başçılar" və digər tərəfdən isə hakimiyyəti ələ keçirməyə çalışan "lider"lər fəal rol oynamışdılar. Hər iki qüvvə ağlasığmaz hərəkətləri ilə xalqı ölçüyə sığmayan faciəyə sürükləmişdilər. Belə çətin qeyri-müəyyən məqamda adamlar irəli durmağa çəkinirdilər.

Başsızlıq faciəsi o günlərdə bütün amansızlığı ilə özünü göstərirdi.

Belə bir vaxtda siyasi hakimiyyətdən uzaqlaşdırılmış, təhlükəsizlik orqanlarının nəzarətində olan, təqiblərə məruz qalan Heydər Əliyev özünün və övladlarının həyatını təhlükədə qoymaqdan çəkinməyərək, 21 yanvar 1990-cı ildə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xalqımıza başsağlığı verdi. Cəsarətlə qanlı hadisəyə münasibətini bildirdi. Həmin ağır günlərdə qeyri-bərabər qüvvələr nisbətində təklənmiş Azərbaycan xalqına böyük mənəvi dayaq Heydər Əliyev oldu.

Yanvar faciəsinə həqiqi və hüquqi qiymət də Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra verildi. 20 Yanvar hadisələrinə ilk etiraz edən də, ilk dəfə siyasi qiymət verən də Heydər Əliyev oldu.

"20 Yanvar" tariximizə həm faciə, həm də qəhrəmanlıq səhifəsi kimi yazıldı.

**Azər NƏBİYEV,**
**professor.**

Respublika.- 2020.- 29 yanvar.- S.5.